Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 44 günlük Vətən savaşının pozulmaz tarixi həqiqətləri Münhen konfransında...

## Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

**Münhen Təhlükəsizlik Konfransı da Davos İqtisadi Forumu kimi, digər beynəlxalq qeyri-rəsmi forumlarla yanaşı, məhz mövqelərin yoxlanıldığı, bu və ya digər ölkələrin liderlərinin fikirləri ilə tanış olunduğu və bu ən yeni qlobal nizamın təməlinin pillə-pillə qoyulduğu platformadır.**



Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşlərdə Azərbaycan-Ermənistan sülh danışıqları prosesi ilə bağlı mühüm müzakirələr aparılıb. Prezident İlham Əliyevin ABŞ Dövlət katibi Entoni Blinken və Ermənistan baş naziri Nikol Paşinyanla birgə görüşdən sonra yerli televiziyalara verdiyi müsahibədə ölkəmizin bu platformadan da uğurla istifadə etdiyi ilə bağlı məqam bir daha özünü göstərdi. Göründüyü kimi, rəsmi Bakı sülh prosesində Azərbaycanın maraqlarına cavab verən bütün formatları dəstəkləyir, təkliflər verir, müstəqil mövqe nümayiş etdirir. Bakı maraqlı güclərin sülh prosesinə töhfə vermək cəhdlərini dəstəkləsə də, Qarabağla bağlı məsələdə heç bir güzəştə getməyəcəyini qətiyyətlə vurğulayır.

Ümumilikdə, Münhendə Qarabağ mövzusunda keçirilən ikitərəfli və üçtərəfli görüşlər bir daha göstərdi ki, Prezident İlham Əliyev, baş nazir Nikol Paşinyandan fərqli olaraq, bütün formatlarda keçirilən toplantılarda konkret gündəliklə çıxış edir. Yəni Bakı İrəvan kimi hər görüşdə fərqli mövqe nümayiş etdirmir. Azərbaycan Brüssel formatını pozmağa çalışan Fransaya da, prosesə töhfə verməkdə maraqlı olan Avropa İttifaqına və ABŞ-a da mövqeyini açıq şəkildə çatdırır.

### Yeni reallıqlarla barışmaq istəməyən qüvvələr gec-tez hesablaşmağa məcbur olacaqlar

Münhendə keçirilən görüşlərdə Fransa prezidenti Emmanuel Makronun kənarda qalması sübut etdi ki, prosesə Bakının maraqlarını təmin etmək istəyən qüvvələr daxil olub, töhfə verə bilər. Prezident Münhendən Cənubi Qafqazda, xüsusilə Qarabağda maraqları olan güclərə bəyan etdi ki, yeni reallıqlarla barışmaq istəməyən qüvvələr gec-tez hesablaşmağa məcbur olacaqlar.

Prezident İlham Əliyev həmçinin erməni tərəfinə Ermənistan-Azərbaycan sərhədində birgə nəzarət buraxılış məntəqələri yaratmağı təklif etdi.

Beləliklə, dünya Azərbaycan və Ermənistan rəhbərlərinin mövqelərini bir daha eşitdi və əmin oldu ki, rəsmi Bakı, hansısa müqavimətə baxmayaraq, sülh sazişi bağlanması məsələsini sonadək aparmaq niyyətindədir.

Yeni qarşıdurma mənasızdır, Cənubi Qafqazda sülh isə yeni imkanlar yaradacaq və bu kontekstdə Azərbaycanın mövqeyi yeni dünya nizamının qurucularının maraqlarına cavab verir.

Bir sözlə, Prezident İlham Əliyevin 59-cu Münhen Təhlükəsizlik Konfransında iştirakı zamanı keçirdiyi görüşlər və bu zaman səsləndirdiyi fikirlər dövlət başçısının qətiyyətindən, prinsipiallığından, həmçinin ölkəmizin dünya birliyindəki mövqeyinin getdikcə möhkəmlənməsindən, o cümlədən reytinqinin artmasından xəbər verir.

### Azərbaycanın mövqeyi birmənalıdır, açıqdır

Milli Dirçəliş Hərəkatı Partiyasının sədr müavini Həbib Ələkbərsoy "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Münhen Konfransı bəzi məsələlərə aydınlıq gətirilməsi baxımından da mühüm rol oynadı: "Dünya ictimaiyyəti Laçın-Xankəndi yolunda baş verənlərlə ətraflı məlumatlandırıldı və Ermənistanın dövlət rəsmilərinin Qarabağda yaşayan ermənilərin blokadaya alınması kimi cəfəng şayiələri alt-üst edildi. Konfrans iştirakçıları əsl reallıqla tanış oldular. Reallıq da ondan ibarətdir ki, dekabrın 12-dən həmin ərazidə vətəndaş cəmiyyəti fəallarımız keçid məntəqəsinə gələndən indiyədək oradan 2500-dən çox nəqliyyat vasitəsi, o cümlədən Rusiya sülhməramlılarının və Qırmızı Xaçın təmsilçilərinin yük avtomobilləri keçib. Qarabağdan 100 pasiyent müalicə üçün Qırmızı Xaç tərəfindən Ermənistana aparılıb. Əgər Qarabağdakı ermənilər bu yoldan istifadə etməyə çalışsalar, onları heç kim dayandırmayacaq. Bütün bunlardan sonra ermənilərin və havadarlarının iç üzləri bir daha bəlli oldu. Görüşdən sonra dövlət başçımız televiziya kanallarına müsahibəsində bir çox məsələlər, eləcə də Tehranda Azərbaycan səfirliyinə qarşı təşkil olunmuş terror aktı barəsində də məlumat verdi. Bildirdi ki, Azərbaycanın mövqeyi birmənalıdır, açıqdır. Azərbaycan haqqın, ədalətin tərəfdarıdır. Daxili işlərimizə kənar qüvvələrin qarışmasına heç vaxt imkan verilməyib və bundan sonra da verilməyəcək".

### Nüfuzlu platformadan istifadə edərək dünyaya mesajlarını çatdırıb

Bütün bunlar bir daha göstərdi ki, Prezident İlham Əliyev, bütün formatlarda olduğu kimi, Münhen Konfransındakı tribunadan da 44 günlük müharibə və ondan sonrakı rüallıqları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Münhen Təhlükəsizlik Konfransının məqsəd və məramına, missiyasına diqqət yetirdikdə Azərbaycana, Prezident İlham Əliyevə böyük dəyərin verilməsini şərtləndirən amillər özünü qabarıq şəkildə büruzə verir. Azərbaycan qalib ölkədir. Dövlətimizin regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün son iki ildə atdığı addımlar göz önündədir. 30 il dünyaya ədalət çağırışını edən Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfəri ilə sübut etdi ki, ədalət və beynəlxalq hüquq deyilən məfhumlar mövcuddur, sadəcə onların tətbiqi üçün vahid mexanizm olmalıdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etdi. Baxmayaraq ki, bu qətnamələr artıq dəfn edilmiş ATƏT-in Minsk qrupunun üzvləri, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvlərindən olan ABŞ, Fransa və Rusiyanın iştirakı ilə qəbul edilmişdir, lakin onların icrası 30 il ləngidildi. Təbii ki, bu mühüm məqamlara diqqət yetirməyimiz səbəbsiz deyil. Beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirə olunduğu Münhen Təhlükəsizlik Konfransına Azərbaycan daim ədalətin, beynəlxalq hüququn yanında olan ölkə kimi qatılıb və bu nüfuzlu platformadan istifadə edərək dünyaya mesajlarını çatdırıb.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**